AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* — *№ 18 (1478), 1 - 7 iyun 2021-ci il* — *Qəzet 2001-ci ildən çıxır.*



## Yığma komandamız Bakıda dünya çempionatının qızıl medallarına yiyələndi

Paytaxtımız çoxdandır ölkəmizdə təşkili planlaşdırılan aerobika gimnastikası üzrə 16-cı dünya çempionatına ev sahibliyi edib. 2020-ci ildə keçirilməli olan, lakin COVID-19 pandemiyası səbəbilə təxirə salınan çempionat mayın 27-29-da Milli Gimnastika Arenasında təşkil edilib. Azərbaycan Gimnastika Federasiyasının (AGF) may ayında təşkil etdiyi yarışlardan sonuncusu olan bu yarışda da gimnastlarımız uğurları ilə hər kəsi sevindiriblər.

Belə ki, Azərbaycan təmsilçiləri ölkəmizin ilk dəfə ev sahibliyi etdiyi aerobika gimnastikası üzrə dünya çempionatında dünya çempionu titulunu qazanmağa müvəffəq olublar. Avropa çempionu adını daşıyan Akif Kərimli, Nigar İbrahimbəyli, Ayxan Əhmədli, Nərminə Hüseynova, Mədinə Mutafayeva, Elçin Məmmədov, İmran İmranov və Nurcan Cabbarlıdan ibarət aerodans komandamız bu dəfə də onlara olan inamı doğruldub. Komandamız 18,400 xal yığaraq, qızıl medala sahib çıxıb.

28 may Respublika Günündən bir gün sonra dünya birinciliyinin qalibi olmuş idmançılarımız isə qələbələrini respublikamıza həsr ediblər.

Gimnastlarımız mayın 30-da daha iki final mərhələsində çıxış ediblər. Kişilərin fərdi proqramında dünyanın ən güclü 8 gimnastı arasında Vladimir Dolmatov 7-ci olub. Nərminə Hüseynova, İmran İmranov, Vladimir Dolmatov, Xoşqədəm Quliyeva və Balaxanım Əhmədovadan ibarət qrupumuz isə finalda 8-ci yerdə qərarlaşıb.

Qeyd edək ki, yarışda 22 ölkədən 171 gimnast birincilik uğrunda mübarizə aparıb.

## Olimpiya və Paralimpiya Oyunlarına lisenziya qazanan idmançılarımızın adları açıqlanıb

Gənclər və İdman Nazirliyi Tokioda keçiriləcək XXXII Yay Olimpiya və XVI Yay Paralimpiya oyunlarına lisenziya qazanmış Azərbaycan idmançılarının siyahısını açıqlayıb.

İndiyədək idmançılarımız Olimpiadaya 20, Paralimpiadaya isə 13 lisenziya qazanıblar.

Olimpiya Oyunlarına ən çox lisenziyanı güləşçilərimiz əldə ediblər. Pəhləvanlarımızdan 7 nəfər - Mariya Stadnik (50 kq), Elis Manolova (68 kq), sərbəst güləşçilərimizdən Hacı Əliyev (65 kq), Hacımurad Hacıyev (74 kq), Şərif Şərifov (97 kq), yunan-Roma güləşçilərimizdən Rafiq Hüseynov (77 kq) və İslam Abbasov (87 kq) Tokio-2020-yə lisenziya qazanıblar.

Gimnastlarımız Olimpiya Oyunlarına 4 lisenziya əldə ediblər. Bədii gimnastlarımızdan Zöhrə Ağamirova (çoxnövçülük), Azərbaycanın qrup hərəkətləri komandası (qrup-çoxnövçülük), Marina Nekrasova və İqor Tixonov (idman gimnastikası, çoxnövçülük), bu lisenziyaları komandamızın aktivinə yazıblar.

Olimpiadaya digər lisenziyaları atletlər Anna Skidan (çəkicatma) və Nazim Babayev (üçtəkanla tullanma), üzgüçü Maksim Şemberev (400 m, qarışıq), taekvondoçular Milad Beigi Hərçəqani (80 kq) və Fəridə Əzizova (80 kq), güllə atıcılığı üzrə Ruslan Lunyov (25 m məsafəyə kiçikçaplı tapançadan atəşaçma), boksçu Tayfur Əliyev (57 kq), qılıncoynadanlardan Anna Başta (sablya) və şose velosipedi üzrə Azərbaycan komandası qazanıblar.

XV Yay Paralimpiya Oyunlarına isə ən çox lisenziyaya Parataekvondoçularımız sahib olublar. Belə ki, idmançılarımızdan Röyalə Fətəliyeva (49 kq), Aynur Məmmədova (58 kq), İmaməddin Xəlilov (61 kq) və Əbülfəz Abuzərli (75 kq) Paralimpiadanın taekvondo yarışlarında mübarizə aparacaqlar. Digər atletlərimizdən isə Paralimpiadaya lisenziyaya Oloxan Musayev (lövhəatma), Samir Nəbiyev (nüvəitələmə), Kamil Əliyev (uzunluğa tullanma), üzgüçülərdən Raman Salei (100 m arxasıüstə), Dana Sandıbina və Vəli İsrafilov, atıcılarımızdan Yelena Taranova (25 m), Kamran Zeynalov (50 m) və pouerliftinqçi Elşən Hüseynov (+107 kq) sahib olublar.

TOKYO 2020

**Yay Olimpiya Oyunlarına 52 gün qalır**



## İdman zallarının fəaliyyətinə icazə veriləcək

"İyun ayının 10-dan idman və sağlamlıq bərpa müəssisələrinin fəaliyyətinə icazə veriləcək". Bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində bildirib.

Prezidentin köməkçisi həmçinin idman zalları ilə bağlı xəbərdarlıq da edib:

"Yoluxma risklərinin azaldılması məqsədi ilə açılacaq idman sağlamlıq obyektlərində çalışan işçilərinin immunitet sertifikatı və koronavirus (COVID) pasportunun tələb olunması nəzərdə tutulur. Bu tələb iyulun 1-dən tətbiq olunacaq. Açılacaq obyektlərdə 80 faiz işçilərin immunitet sertifikatı və COVID pasportu yoxdursa, xəbərdarlıq ediləcək, hətta o zallar bağlana bilər".



## "Köhnə qitə"də yeni futbol bayramı başlayır

Futbol azarkeşlərinin səbrsizliklə gözlədiyi AVRO-2020-yə sayılı günlər qalıb. Avropanın ən güclü komandaları qitənin fərqli ölkələrində çempionluq uğrunda mübarizəyə başlayacaqlar.

16-cı dəfə təşkil olunacaq çempionatın əslində, ötən il 12 iyun-13 iyul tarixində keçirilməsi planlaşdırılsa da, dünyada yayılan COVİD-19 pandemiyasına görə 1 il müddətinə təxirə salındı. UEFA-nın 17 mart 2020-ci il tarixində keçirilmiş iclasında turnirin bu il iyunun 11-dən iyulun 12-dək keçirilməsi barədə qərar verildi.

Avropa çempionatının 60 illik yubileyi münasibətilə AVRO-2020-nin oyunları UEFA-ya üzv olan qitənin 11 ölkəsinin 11 müxtəlif şəhərində təşkil olunacaq.

Çempionatda 24 komanda 6 qrupda mübarizə aparacaq. Turnirin açılış matçı İtaliyanın paytaxtı Romadakı Olimpiya stadionunda olacaq. Həmin matçda A qrupunun təmsilçiləri İtaliya və Türkiyə milliləri üz-üzə gələcəklər. Qitə çempionatının yarımfinal və final oyunları isə Londonda yerləşən "Uembli" stadionunda olacaq. 1996-cı ildəki çempionatdan sonra bu arena ikinci dəfə yarımfinal və final oyunlarına ev sahibliyi edəcək.

AVRO-2020-nin A qrupunun 3 oyunu və 1/4 final mərhələsinin 1 qarşılaşması isə Bakı Olimpiya Stadionunda keçiriləcək. Oxucuların marağını nəzərə alan "Olimpiya dünyası" qəzeti hər zaman olduğu kimi, bu dəfə də futbol üzrə Avropa çempionatını diqqətdə saxlayıb. Qəzetimizin bu sayında AVRO-2020-nin qrupları və oyunların təşkil olunacağı stadionlar barədə məlumatlar dərc olunub.

*(ardı 4, 5, 6-cı səhifələrdə)*

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*

**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## Tokio-2020-nin rəsmi tərəfdaşı Oyunların ləğvinə çağırır

Cari ildə keçirilməsi planlaşdırılan Tokio Olimpiya və Paralimpiya Oyunlarının rəsmi tərəfdaşı olan "Asahi Shimbun" qəzeti Yaponiya hökumətini yarışları ləğv etməyə çağırıb.

Qəzetin "Redaktor rəyi" bölməsində yer alan məqalədə deyilir: "Yeni növ koronavirusun yayılmasının qarşısı hələ də alınmayıb, Tokioda və bir sıra digər regionlarda isə fövqəladə vəziyyət rejiminin müddətinin uzadılacağı gözlənilir. Belə olan halda, biz Tokioda Olimpiya Oyunlarının təşkilini düzgün addım hesab etmirik. Biz Baş naziri yaranmış vəziyyəti ayıq başla qiymətləndirməyə və qarşıda gözlənilən yarışları ləğv etməyə çağırırıq".

Məqalədə qeyd edilir ki, bu ərəfədə Yaponiyada Olimpiya Oyunlarının məqsədəuyğunluğu barədə keçirilən ictimai rəy sorğusunda respondentlərin təqribən 60 faizi Tokio Olimpiya və Paralimpiya Oyunlarının ləğvini dəstəkləyiblər. Yarışların məhdud sayda tamaşaçılarla keçirilməsini rəyi soruşulanların yalnız 12,6 faizi, boş tribunlar təklifini isə 25 faizi müdafiə edib.

# Tokio-2020-nin karate yarışlarında rəqiblər müəyyənləşib

Dünya Karate Federasiyası (WKF) Tokio Olimpiadasının təsnifat mərhələsini uğurla keçən ilk 40 idmançının adlarını açıqlayıb.

Azərbaycan Milli Karate Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, onların arasında Azərbaycan karateçiləri Rafael Ağayev (75 kq) və İrina Zaretska da (+61 kq) var.

R.Ağayevin rəqiblərindən Stanislav Horuna (Ukrayna), Luici Busa (İtaliya), Bəhmən Əsgəri (İran) və Ken Nişimura (Yaponiya) müəyyənləşib. İ.Zaretskanın rəqiblərindən isə Həmidəh Abbasəli (İran), Li Qonq (Çin), Məltəm Hocaoğlu (Türkiyə) və Ayumi Uyekusa (Yaponiya) artıq məlumdur.

Otuz iki vəsiqə 8 Olimpiya kateqoriyasında reytinq cədvəlinin ilk dördlüyünə, 8 yer isə təşkilatçı ölkə kimi Yaponiya idmançılarına ayrılıb.

Tokio-2020-də 80 karateçi yarışacaq. Onlardan 60-ı kumite, 20-si kata yarışlarında mübarizə aparacaq. Daha 24 idmançı iyunun 13-14-də Parisdə xüsusi lisenziya turnirində Olimpiadaya vəsiqə qazanmağa çalışacaq. On iki əlavə lisenziya müvafiq olaraq, qitə nümayəndəliklərinə veriləcək. Digər 4 karateçiyə Olimpiya vəsiqələri üçtərəfli komissiyanın dəvəti ilə təqdim ediləcək.




Tokio Olimpiadasının karate yarışları avqustun 5-7-də Nippon Budokan Mərkəzində keçiriləcək.

# Varnadan bürünc medal

Aerobika gimnastlarımız Vətəndə dünya çempionu olduqdan sonra daha bir medal xəbəri Bolqarıstanın Varna şəhərindən gəldi.

Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, idmançımız Varnada keçirilən idman gimnastikası üzrə dünya kubokunda fərqlənib. Yarışda ölkəmizi idman gimnastikası üzrə yığma komandanın üzvləri İvan Tixonov və Nikita Simonov təmsil ediblər.

Turnirdə 3 final mərhələsinə adlamış İ.Tixonov kubok yarışlarının sonuncu günündə dayaqlı tullanma aləti üzrə icra etdiyi çıxışına görə bürünc medal qazanıb. Paralel qollar üzrə finalda isə gimnastımız medalın bir addımlığında dayanıb. Halqalarla nümayiş etdirdiyi proqrama görə 5-ci olub.




Halqalarla yarışda finala adlamış digər gimnastımız N.Simonov isə 6-cı pillədə qərarlaşıb.

## Paracüdo komandamız beynəlxalq Qran-Pri turnirini birinci yerdə başa vurdu

Bakıda keçirilən paracüdo üzrə "IBSA Judo Grand-Prix Baku 2021" beynəlxalq Qran-Pri turniri başa çatıb. Yüksək səviyyədə təşkil edilən yarışda Azərbaycan komandası uğurla çıxış edərək 9 medal qazanıb. Belə ki, Namiq Abbaslı (66 kq), Sevda Vəliyeva (57 kq), Xanım Hüseynova (63 kq) bütün rəqiblərini məğlub edərək qızıl medal əldə ediblər.

Zülfiyə Hüseynova (70 kq) və Hüseyn Rəhimli (81 kq) yalnız finalda uduzaraq ikinci yerə sahib olublar.

Vüqar Şirinli (60 kq), Şəhanə Hacıyeva (48 kq), Bəsti Səfərova (52 kq) və Afaq Sultanova (57 kq) isə üçüncü yeri tutublar.

Bu nəticə ilə komandamız ümumi hesabda birinci yeri tutub. Özbəkistan yığması 2 qızıl, 5 gümüş, 3 bürünc medalla ikinci, Braziliya paracüdoçuları 2 qızıl, 2 bürünc medalla üçüncü yerdə qərarlaşıblar.

Qeyd edək ki, on səkkiz cüdoçumuzun mübarizə apardığı Qran-Pridə ümumilikdə 38 ölkədən 200 idmançı medallar uğrunda yarışıb.




"IBSA Judo Grand-Prix Baku 2021" Qran-Prisi turniri Tokio Yay Paralimpiya Oyunlarına reytinq xalları qazandırır.

## Kiprdə hakim haqsızlığı ilə üzləşən millimiz Avropa çempionatından imtina etdi

"Sambo üzrə millimiz hakim ədalətsizliyinə görə Avropa çempionatında iştirak etməkdən imtina edib".

Bu sözləri Kipr Respublikasının Limasol şəhərində keçirilən sambo üzrə Avropa çempionatında Azərbaycanın kişilərdən ibarət milli komandasının yarışdan kənarlaşdırılması ilə bağlı yığmamızın baş məşqçisi Bəxtiyar Hacıyev açıqlamasında bildirib. O qeyd edib ki, 71 kiloqram çəki dərəcəsində qitə çempionatında mübarizə aparan millinin üzvü Emil Həsənova finalda haqsızlıq edildiyi üçün komanda etiraz edib: "Emil Həsənov çox yaxşı samboçudur və birinci dəfə deyil ki, ona qarşı haqsızlıq edilir. O, bu yarışda da inamlı təsir bağışlayırdı. Belə ki, həlledici mərhələyə qədər İsrail, Fransa, Gürcüstan samboçularını məğlub etmişdi. Finalda Rusiyanı təmsil edən Məhəmməd Hacıyevlə görüşündə qızıl medalın bir addımlığında olsa da, hakimlər ona qarşı haqsızlıq etdilər".

B.Hacıyev bildirib ki, samboçumuz rəqibin ona tətbiq etdiyi ağrıdıcı fənd zamanı təslim olmayaraq vəziyyətdən çıxmağa çalışdığı həlledici anda hakim görüşü dayandıraraq qələbəni rəqibə verib: "Samboda ağrıdıcı fəndə düşən idmançı ya əlini döşəyə vurmalı, ya da qışqırmalıdır. Yoxsa hakim görüşü dayandıra bilməz".

B.Hacıyev onu da deyib ki, görüşün videosu müvafiq şəxslər, eləcə də, Avropa Sambo Federasiyasının vitse-prezidenti, baş katibi tərəfindən yenidən izlənilib və hakimin səhvə yol verdiyi etiraf edilib. Bununla belə, görüş başa çatdığı üçün nəticə olduğu kimi saxlanılıb: "Bizə təklif etdilər ki, fəxri kürsüdə E.Həsənova gümüş medal verilsin, amma sonradan ona əlavə qızıl medal da simvolik veriləcək. Biz bununla razılaşmadıq. 28 May - Respublika Günündə çox istəyirdik ki, şanlı bayrağımız yüksəklərdə dalğalansın, Azərbaycanın Dövlət Himni səsləndirilsin. Amma hakim ədalətsizliyi istəyimizə mane oldu".

Qeyd edək ki, mayın 26-29-da Limasolda yeniyetmə, gənclər və kişilər arasında Avropa çempionatı keçirilib. Qitə çempionatında gənclərdən ibarət yığma komandamız uğurla çıxış edib. Yarışda komandamızın heyətində Nicat Məmmədli (58 kq), Elvin Bağırov (64 kq), Ağani Məmmədov (79 kq), Adil Adilzadə (88 kq) və Toğrul Salmanov (+98 kq) mübarizə aparıblar. Toğrul Salmanov turnirdə bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb. Nicat Məmmədli (58 kq) gümüş, Elvin Bağırov (64 kq) bürünc medallara sahib olublar.




Gənclərdən ibarət millimiz komanda hesabında üçüncü yeri tutub.

## *Triatlonçumuz Tunisdə mükafatçılar sırasında yer aldı*

Azərbaycan triatlonçusu cari ildə beynəlxalq arenada ilk uğuruna nail olub. Millimizin üzvü Kseniya Levkovskaya Tunisdə keçirilən açıq Afrika kuboku yarışında gümüş medal qazanıb. İdmançımız bu nəticə ilə həm də aktivinə reytinq balları yazdırıb.

K.Levkovskaya su yarışlarında 750 metrlik məsafəni 9 dəqiqə 46 saniyəyə başa vurub. Sonra velosipedlə hərəkətlərdə 20 kilometrlik məsafəni 29 dəqiqə 16 saniyəyə qət edib. Yarışın sonuncu mərhələsi - 5 kilometr məsafəyə qaçışda isə təmsilçimiz 18 dəqiqə 11 saniyəlik nəticə göstərib.

Ümumi hesabda Azərbaycan idmançısı 58 dəqiqə, 1 saniyəlik göstərici ilə ikinci yeri tutub.

Açıq Afrika kuboku Olimpiadaya seçmə turniri statusuna malik reytinqli yarışdır.




## Klassiklərimiz qitə birinciliyini 2 medalla başa vurublar

Bolqarıstanın paytaxtı Sofiyada keçirilən U-15 Avropa çempionatında yunan-Roma güləşçilərinin mübarizəsinə yekun vurulub. Məşqçilər Əbülfət Məmmədov və İlham Vəzirovun rəhbərliyi altında 12 yeniyetmə pəhləvanımız məsul yarışda qüvvəsini sınayıb.

Qitə birinciliyində ölkəmizi təmsil edən idmançılardan ikisi fəxri kürsüyə qalxıb. Turan Daşdəmirov (38 kq) və Rinat Nuriyev (62 kq) Avropa çempionatını gümüş medalla başa vurublar.

Qeyd edək ki, yarışda beynəlxalq dərəcəli hakimimiz Başir İsazadə ədaləti qoruyub.

## *Kayakçımız beynəlxalq reqatanın qalibi oldu*

Azərbaycan kayakçısı Tofiq Bayramov Slovakiyanın paytaxtı Bratislavada keçirilən beynəlxalq reqatanın qalibi olub. Sayca 35-ci dəfə təşkil olunmuş yarışda 17 yaşlı idmançı yeniyetmələrin 1 nəfərlik qayıqla 200 metr məsafəyə yürüşündə qızıl medal qazanıb.

O, seçmə mərhələdə finişə 41,302 saniyəyə, yarımfinalda 41,430 saniyəyə, finalda isə 41,190 saniyəyə çatıb.

Azərbaycanın digər təmsilçilərinə gəldikdə, oğlanlardan Maarif Qarayev - Ceyhun Vəlixanov dueti 2 nəfərlik kayak qayığı ilə 200 metr məsafəyə final yürüşündə 2 dəqiqə 0,070 saniyəyə 4-cü, Nicat Rəhimov 1 nəfərlik kanoe qayığı ilə eyni məsafəyə həlledici yürüşdə 55,750 saniyəyə 8-ci yeri tutub.

Yeganə xanım kanoeçi Gülnarə Həmzəyeva isə 1 nəfərlik qayıqla seçmə mərhələdə yürüşündə finişə 1 dəqiqə 12,080 saniyəyə çataraq, sonuncu - 7-ci yeri tutub və mübarizəni erkən dayandırıb.

Qeyd edək ki, beynəlxalq reqatada 10 ölkə yığması və Slovakiyanın 14 klubu iştirak edib.

## Komandamız Budapeştə 12 idmançı ilə yollanır

İyunun 6-dan 13-dək Budapeştdə cüdo üzrə dünya çempionatı keçiriləcək. Olimpiadaya lisenziya xarakterli çempionatda Azərbaycanı 12 cüdoçu təmsil edəcək. Kişilərin yarışında Davud Məmmədsoy, Kəramət Hüseynov (60 kq), Orxan Səfərov, Nicat Şıxəlizadə (66 kq), Nurlan Osmanov, Hidayət Heydərov (73 kq), Murad Fətiyev, Zelim Tkçayev (81 kq) və Elmar Qasımov (100 kq) mübarizə aparacaqlar.

Qadınların mübarizəsində isə ölkəmizi Aişə Qurbanlı, Leyla Əliyeva (48 kq) və Gültac Məmmədəliyeva (52 kq) təmsil edəcək.

# OLİMPİYA 20 DÜNYASI



*İlk sayı 2001-ci il noyabrın 27-də işıq üzü görən "Olimpiya dünyası" qəzeti keçən bu müddət ərzində təkcə idmanın və Olimpiya Hərəkatının təbliği ilə məşğul olmur, həm də müxtəlif idman tədbirlərinin təşkilində fəal iştirak edir. Belə ki, 2003-cu ilin noyabrın 29-da Gəncə Olimpiya İdman Kompleksində "Olimpiya dünyası" qəzetinin təşkilatçılığı ilə karate-do üzrə "Gəncə kuboku" ənənəvi beynəlxalq turniri keçirilib. Bu, Gəncə Olimpiya İdman Kompleksində təşkil olunan sayca ikinci beynəlxalq yarış idi. Qeyd edək ki, sonuncu yarışın keçirilməsinə Milli Olimpiya Komitəsi və Azərbaycan Karate-do Federasiyaları Assosiasiyası yaxından kömək etmişlər. Həmin ilin əvvəlində isə burada Rusiya və Azərbaycan voleybolçularının yoldaşlıq görüşü təşkil olunmuşdu.*

## "Olimpiya dünyası" karate-do üzrə beynəlxalq "Gəncə kuboku" turnirinin təşkilatçısı olub

Gəncə şəhərində keçirilən bu turniri izləmək üçün kompleksə çoxsaylı idmançı və tamaşaçılar toplaşmışdı. Turnirdə Gəncə, Bərdə, Ağcabədi, Şəmkir, Tovuz rayonlarını, Gəncədə fəaliyyət göstərən "Metallurq", "Toxuculuq", "Dinamo", "Təhsil" idman mərkəz və klublarını, Gəncə Olimpiya İdman Kompleksini (GOİK) təmsil edən idmançılarla yanaşı, Gürcüstan karateçiləri də iki komanda ilə qüvvələrini sınayırdılar.



Ümumilikdə, yarışda 100-ə yaxın karateçi iştirak edirdi. Həm yerli, həm də qonşu Gürcüstan komandalarının tərkibində kifayət qədər nüfuzlu və titullu karateçilər təmsil olunmuşdular. Belə ki, gürcülərin heyətində dünya və qitə çempionatlarının qalibi olmuş, Dünya kubokuna yiyələnmiş 3 karateçi çıxış edirdi. Yarışda ölkəmizi təmsil edən ayrı-ayrı komandalarda da karate üzrə Avropa çempionu, dünya birinciliyinin mükafatçısı və əsas yığma komandamızın digər üzvləri qələbə uğrunda mübarizə aparırdılar.

Yarışları beynəlxalq dərəcəli hakimlər Sahib Rzayev və Mircabbar Seyidov idarə edirdilər.

Turnirin baş hakimi 5-ci dan qara kəmər sahibi, beynəlxalq dərəcəli referi Yusif Məmmədov yarışı açıq elan etdikdən sonra söz Gəncə Olimpiya İdman Kompleksinin direktoru Sahib Rzayevə verildi. O, bu turnirin ölkələr arasında dostluq və səmimiyyətə xidmət etdiyini, bölgələrimizdə yeni-yeni idmançıların üzə çıxarılması üçün böyük əhəmiyyət daşıdığını bildirdi.

Gəncə Şəhər Gənclər, İdman və Turizm Baş İdarəsinin rəisi Cumalik Rəhimov öz çıxışında idman sahəsində böyük ənənələri olan Gəncənin karate-do üzrə beynəlxalq turnirə ev sahibliyi etməsini əlamətdar tarixi hadisə kimi qiymətləndirdi. O, Milli Olimpiya Komitəsinin, Gənclər, İdman və Turizm Nazirliyinin bu bölgədə idmanın inkişafı üçün çox böyük işlər gördüklərini yarış iştirakçılarının nəzərinə çatdırdı.

"Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev bu qəzetin ölkədə idmanın təbliği, Olimpiya Hərəkatının genişlənməsi, bədən tərbiyəsi və idmanın kütləviləşməsi sahəsində böyük səy göstərdiyini vurğuladı.

Natiq sonra qeyd etdi ki, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev kompleksin açılış mərasimində demişdir: "Bu kompleks dünyanın ən yüksək standartlarına cavab verir, iki salondan ibarətdir. Burada həm gözəl məşq etmək, təlim-məşq toplanışları keçirmək, həm də ən yüksək səviyyəli beynəlxalq yarışları keçirmək mümkün olacaqdır. Mən inanıram ki, burada yaşayan idmançılar, gənclər, uşaqlar bu kompleksdən səmərəli istifadə edəcəklər".





Çıxışının sonunda M.Fərzəliyev vurğuladı ki, respublikanın müxtəlif bölgələrində Milli Olimpiya Komitəsi tərəfindən tikilib istifadəyə verilən Olimpiya idman kompleksləri ölkədə idmanın inkişafına, Olimpiya Hərəkatının genişlənməsinə güclü təkan verib. O, Gəncədə keçirilən bu yarışın bölgə idmanının inkişafında böyük rol oynayacağını, növbəti turnirlərə daha çox ölkələrdən və bölgələrdən idmançıların qatılacaqlarına inandığını bildirərək, yarış iştirakçılarına uğurlar arzuladı.

Sonra karate-do üzrə "Gəncə kuboku" turnirinə 16-17 yaşlıların mübarizəsi ilə start verildi. Bu yaş qrupunun A yarımqrupunda mübarizə aparan idmançılar arasında Gəncə "Dinamo" idman cəmiyyətinin təmsilçisi Vüqar Rubəxşi və Gəncə Olimpiya İdman Kompleksinin yetirməsi Renat Saitov bütün rəqiblərinə qalib gələrək, yarımfinala yüksəldilər. Onların yarımfinal görüşləri olduqca maraqlı keçdi. Görüşdə qalib gələn Renat Saitov finala yüksəldi.

Tamaşaçılar B yarımqrupunda da gərgin döyüşlərin şahidi oldular. Gəncə təmsilçisi Niyazi Əliyev ilə Gəncə Olimpiya İdman Kompleksinin idmançısı Babək Həmidovun yarımfinal döyüşü kimin daha güclü olduğunu müəyyənləşdirdi. Bu görüşdən qələbə ilə ayrılan Niyazi özü üçün finala vəsiqəni təmin edə bildi.

Qeyd edilən yaş qrupu üzrə keçirilən final görüşündə Renat Saitov Niyazi Əliyevə qalib gəldi. Beləliklə, Renat Saitov (GOİK) 1-ci, Niyazi Əliyev (Gəncə) 2-ci, Vüqar Rubəxşi (GOİK) və Babək Həmidov (Gəncə) 3-cü yerlərə layiq görüldülər.





Çəkisi 70 kiloqrama qədər olan karateçilərin çıxışları da tamaşaçılar tərəfindən maraqla izlənildi. Gəncə Olimpiya İdman Kompleksinin idmançısı Arif Məmmədovla Avropa və dünya çempionatlarının mükafatçısı tanınmış karateçi Rafael Ağayev bütün rəqiblərinə qalib gələrək, finala vəsiqə qazandılar. Tamaşaçılar onların final mübarizəsini maraqla gözləyirdilər. Bu iki güclü idmançının final döyüşündə GOİK təmsilçisi Arif Məmmədov daha güclü olduğunu sübut etdi. Bu çəki dərəcəsində üçüncü yerlərə Gəncə "Təhsil" İdman Mərkəzinin nümayəndəsi Yusif İsmayılzadə və Ağcabədi təmsilçisi Pərviz Bayramov layiq görüldülər.

Turnirin ən yaddaqalan döyüşləri +70 kq çəki dərəcəsində keçirildi desək, yanılmarıq. Bu çəkidə mübarizə aparan idmançıların demək olar ki, hamısı, güclü idi. Yarımfinal görüşlərində Seyran Bağırov (GOİK) və Aleko Jamuraşvili (Gürcüstan) qalib gələrək, bürünc medal qazandılar. Finalda GOİK idmançısı Asif Bağırovla Fuad Allahverdiyev (Gəncə "Dinamo") üzüzə gəldilər və gərgin keçən döyüş ikincinin qələbəsi ilə başa çatdı.

Şəxsi yarışlar bitdikdən sonra 10 komanda arasında komanda yarışları başladı. Yarımfinalda A yarımqrupunda GOİK ilə Gürcüstan -1, B yarımqrupunda isə Gəncə komandası ilə "Təhsil" İM-in komandası qarşılaşdılar. Birinci yarımqrupdan GOİK, ikincidən isə Gəncə komandaları finala yüksəldilər. Bu komandaların final görüşündə isə GOİK daha güclü olduğunu sübut edərək, "Gəncə kuboku"na sahib oldu.

Yarışlar başa catdıqdan sonra mükafatlandırma mərasimi keçirildi. Qaliblərə diplom, medal və qiymətli hədiyyələr verildi. Turnirin "Ən texnikalı idmançısı" mükafatına Vüqar Rubəxşi (GOİK) və Beka Araxamiya (Gürcüstan) layiq görüldülər.

Azərbaycan Karate-do Federasiyaları Assosiasiyası, Azərbaycan Kontakt Karate-do Federasiyası, Gəncə Şəhər Gənclər, İdman və Turizm Baş İdarəsi turnirdə "Fəal iştirakına görə" diplomu ilə mükafatlandırıldılar.

Gürcüstan komandasının rəhbərinə də turnirin xüsusi mükafatı verildi.

### "Gəncə kuboku"nda gənc hakim debüt etdi

Qədim Nizami yurdunda təşkil olunan beynəlxalq turnirdə qarşılaşmaları beynəlxalq dərəcəli hakimlər 5-ci dan qara kəmər sahibi Yusif Məmmədov, Gəncə Olimpiya Kompleksinin direktoru, 5-ci dan qara kəmər sahibi Sahib Rzayev və Azərbaycan Karate-do Federasiyasının prezidenti Mircabbar Seyidovla yanaşı, gənc hakim Könül Rzayeva da idarə edirdi. O, karate üzrə məşqlərə 1998-ci ildə başlayıb. Bu idmanın kata növündə respublika birinciliklərində iki gümüş və üç bürünc medal qazanıb. 2001-ci ilin oktyarbrında dünya çempionatında ikinci olub. 2002-ci ildə Almaniyada keçirilən dünya birinciliyində fəxri kürsünün üçüncü pilləsinə qalxıb. Azərbaycan çempionatında isə kumitedə birinci yerə çıxıb.




# 2020

## A qrupu

### TÜRKİYƏ



**Ali futbol qurumu:** Türkiyə Futbol Federasiyası
**Yaranma tarixi:** 1923-cü il
**FİFA reytinqi:** 29-cu yer
**Ləqəb:** "Ay-ulduzlular"
**Baş məşqçi:** Şenol Güneş
**İlk oyun:** Türkiyə - Rumınıya - 2:2 (1923-cü il)

### İTALİYA

**Ali futbol qurumu:** İtaliya Futbol Federasiyası
**Yaranma tarix:** 1898-ci il
**FİFA reytinqi:** 7-ci yer
**Ləqəb:** "Skuadra adzurra"
**Baş məşqçi:** Roberto Mançini
**İlk oyun:** İtaliya - Fransa - 6:2 (1910-cu il)



### UELS



**Ali futbol qurumu:** Uels Futbol Assosiasiyası
**Yaranma tarixi:** 1876-cı il
**FİFA reytinqi:** 17-ci yer
**Ləqəb:** "Əjdahalar"
**Baş məşqçi:** Robert Page
**İlk oyun:** Şotlandiya - Uels - 4:0 (1876-cı il)

### İSVEÇRƏ

**Ali futbol qurumu:** İsveçrə Futbol İttifaqı
**Yaranma tarixi:** 1895-ci il
**FİFA reytinqi:** 13-cü yer
**Ləqəb:** "Nati"
**Baş məşqçi:** Vladimir Petkoviç
**İlk oyun:** İsveçrə - Fransa - 0:1 (1905-ci il)



## B qrupu

### DANİMARKA



**Ali futbol qurumu:** Danimarka Futbol İttifaqı
**Yaranma tarixi:** 1889-cu il
**FİFA reytinqi:** 10-cu yer
**Ləqəb:** "Dat dinamitləri" "Olsenin 11 dostu"
**Baş məşqçi:** Kasper Hyulmand
**İlk oyun:** Danimarka - Fransa - 9:0 (1908-ci il)

### FİNLANDİYA

**Ali futbol qurumu:** Finlandiya Futbol Assosiasiyası
**Yaranma tarixi:** 1907-ci il
**FİFA reytinqi:** 54-cü yer
**Ləqəb:** "Bayquşlar"
**Baş məşqçi:** Markku Kanerva
**İlk oyun:** Finlandiya - İsveç -2:5 (1911-ci il)



### BELÇİKA



**Ali futbol qurumu:** Belçika Kral Futbol Assosiasiyası
**Yaranma tarixi:** 1895-ci il
**FİFA reytinqi:** 1-ci yer
**Ləqəb:** "Qırmızı iblislər"
**Baş məşqçi:** Roberto Martinez
**İlk oyun:** Belçika - Fransa - 3:3 (1904-cü il)

### RUSİYA

**Ali futbol qurumu:** Rusiya Futbol İttifaqı
**Yaranma tarixi:** 1912-ci il
**FİFA reytinqi:** 38-ci yer
**Ləqəb:** "Ayılar", "Rus drujinası"
**Baş məşqçi:** Stanislav Çerçesov
**İlk oyun:** Rusiya - Meksika - 2:0 (1992-ci il)



## C qrupu

### NİDERLAND



**Ali futbol qurumu:** Niderland Kral Futbol İttifaqı
**Yaranma tarixi:** 1889-cu il
**FİFA reytinqi:** 16-cı yer
**Ləqəb:** "Narıncılar"
**Baş məşqçi:** Frank de Bur
**İlk oyun:** Hollandiya - Belçika - 4:1 (1905-ci il)

### UKRAYNA

**Ali futbol qurumu:** Ukrayna Futbol Assosiasiyası
**Yaranma tarixi:** 1991-ci il
**FİFA reytinqi:** 24-cü yer
**Ləqəb:** "Sarı-göy"
**Baş məşqçi:** Andrey Şevçenko
**İlk oyun:** Ukrayna - Macarıstan - 1:3 (1992-ci il)



### AVSTRİYA



**Ali futbol qurumu:** Avstriya Futbol İttifaqı
**Yaranma tarixi:** 1904-cü il
**FİFA reytinqi:** 23-cü yer
**Ləqəb:** "Yaxşı komanda"
**Baş məşqçi:** Franko Foda
**İlk oyun:** Avstriya - Macarıstan - 5:0 (1902-ci il)

### ŞİMALİ MAKEDONİYA

**Ali futbol qurumu:** Şimali Makedoniya Futbol Federasiyası
**Yaranma tarixi:** 1949-cu il
**FİFA reytinqi:** 62-ci yer
**Ləqəb:** "Qırmızı aslanlar"
**Baş məşqçi:** İqor Angelovski
**İlk oyun:** Sloveniya - Şimali Makedoniya - 1:4 (1993-cü il)






# 2020

## D qrupu

### İNGİLTƏRƏ



**Ali futbol qurumu:** İngiltərə Futbol Assosiasiyası
**Yaranma tarixi:** 1863-cü il
**FİFA reytinqi:** 4-cü yer
**Ləqəb:** "Üçşir"
**Baş məşqçi:** Qaret Sautqeyt
**İlk oyun:** Şotlandiya - İngiltərə - 0:0 (1872-ci il)

### XORVATİYA

**Ali futbol qurumu:** Xorvatiya Futbol Federasiyası
**Yaranma tarixi:** 1912-ci il
**FİFA reytinqi:** 14-cü yer
**Ləqəb:** "Damalılar"
**Baş məşqçi:** Zlatko Daliç
**İlk oyun:** Xorvatiya-İsveçrə - 4:0 (1940-cı il)



### ŞOTLANDİYA



**Ali futbol qurumu:** Şotlandiya Futbol Assosiasiyası
**Yaranma tarixi:** 1873-ci il
**FİFA reytinqi:** 44-cü yer
**Ləqəb:** "Tartan ordusu"
**Baş məşqçi:** Stiv Klark
**İlk oyun:** Şotlandiya - İngiltərə - 0:0 (1992-ci il)

### ÇEXİYA

**Ali futbol qurumu:** Çex Respublikası Futbol Assosiasiyası
**Yaranma tarixi:** 1901-ci il
**FİFA reytinqi:** 40-cı yer
**Ləqəb:** "Çexlər", "Lokomotiv"
**Baş məşqçi:** Yaroslav Şilqavıy
**İlk oyun:** Türkiyə - Çexiya - 1:4 (1994-cü il)



## E qrupu

### İSPANİYA



**Ali futbol qurumu:** İspaniya Kral Futbol Federasiyası
**Yaranma tarixi:** 1909-cu il
**FİFA reytinqi:** 6-cı yer
**Ləqəb:** "Qırmızı Furya", "Toreodorlar"
**Baş məşqçi:** Luis Enrike
**İlk oyun:** İspaniya - Danimarka - 1:0 (1920-ci il)

### İSVEÇ

**Ali futbol qurumu:** İsveç Futbol İttifaqı
**Yaranma tarixi:** 1904-cü il
**FİFA reytinqi:** 18-ci yer
**Ləqəb:** "Mavisarılar", "Üçtaclılar"
**Baş məşqçi:** Yanne Andersson
**İlk oyun:** İsveç - Norveç -11:3 (1908-ci il)



### POLŞA



**Ali futbol qurumu:** Polşa Futbol İttifaqı
**Yaranma tarixi:** 1919-cu il
**FİFA reytinqi:** 21-ci yer
**Ləqəb:** "Ağqırmızılar", "Qartallar"
**Baş məşqçi:** Paulo Sousa
**İlk oyun:** Macarıstan - Polşa - 1:0 (1921-ci il)

### SLOVAKİYA

**Ali futbol qurumu:** Slovakiya Futbol İttifaqı
**Yaranma tarixi:** 1938-ci il
**FİFA reytinqi:** 36-cı yer
**Ləqəb:** "Nümayəndələr", "Slovak şahinləri"
**Baş məşqçi:** Stefan Tarkoviç
**İlk oyun:** Slovakiya - Almaniya - 2:0 (1939-cu il)



## F qrupu

### MACARISTAN



**Ali futbol qurumu:** Macarıstan Futbol Federasiyası
**Yaranma tarixi:** 1901-ci il
**FİFA reytinqi:** 37-ci yer
**Ləqəb:** "Sehirli mədyarlar"
**Baş məşqçi:** Marko Rossi
**İlk oyun:** Avstria - Macarıstan - 5:0 (1902-ci il)

### PORTUQALİYA

**Ali futbol qurumu:** Portuqaliya Futbol Federasiyası
**Yaranma tarixi:** 1914-cü il
**FİFA reytinqi:** 5-ci yer
**Ləqəb:** Selesçao das Quinas ("Seçilmişlərin komandası")
**Baş məşqçi:** Fernando Santos
**İlk oyun:** Portuqaliya - İspaniya - 1:3 (1921-ci il)



### FRANSA



**Ali futbol qurumu:** Fransa Futbol Federasiyası
**Yaranma tarixi:** 1919-cu il
**FİFA reytinqi:** 2-ci yer
**Ləqəb:** "Göylər", "Xoruzlar", "Üçrənglilər"
**Baş məşqçi:** Didye Deşam
**İlk oyun:** Fransa - Belçika - 3:3 (1904-cü il)

### ALMANİYA

**Ali futbol qurumu:** Almaniya Futbol İttifaqı
**Yaranma tarixi:** 1900-cü il
**FİFA reytinqi:** 12-ci yer
**Ləqəb:** "Bundestim", "Alman maşını"
**Baş məşqçi:** Hans-Diter Flik
**İlk oyun:** Almaniya - İsveçrə - 3:5 (1908-ci il)



# EURO-2020

## Futbol üzrə Avropa çempionatının final mərhələsinin təqvimi "Olimpiya dünyası"nın təqdimatında

Şəhər: Buxarest
Stadion: Milli stadion
Azarkeş tutumu: 55,634
İcazə verilən azarkeş sayı: 25 faiz

Matçlar

13 iyun. 20:00 Avstriya - Ş.Makedoniya
17 iyun. 17:00 Ukrayna - Ş.Makedoniya
21 iyun. 20:00 Ukrayna - Avstriya
28 iyun. 23:00 1/8 final



Şəhər: Münhen
Stadion: "Alyans Arena"
Azarkeş tutumu: 70 min
İcazə verilən azarkeş sayı: 20 faiz

Matçlar
15 iyun. 23:00 Fransa - Almaniya
19 iyun. 20:00 Portuqaliya - Almaniya
23 iyun. 23:00 Almaniya - Macarıstan
2 iyul. 23:00 1/4 final



Şəhər: Amsterdam
Stadion: Yohan Kroyf Arena
Azarkeş tutumu: 55,500
İcazə verilən azarkeş sayı: 25 faiz

Matçlar

13 iyun. 23:00 Niderland - Ukrayna
17 iyun. 23:00 Niderland - Avstriya
21 iyun. 20:00 Ş.Makedoniya - Niderland
26 iyun. 20:00 1/8 final



Şəhər: Roma
Stadion: "Olimpiko" stadionu
Azarkeş tutumu: 68 min
İcazə verilən azarkeş sayı: 25 faiz

Matçlar

11 iyun. 23:00 Türkiyə - İtaliya
16 iyun. 23:00 İtaliya - İsveçrə
20 iyun. 20:00 İtaliya - Uels
3 iyul. 23:00 1/4 final



Şəhər: London
Stadion: "Uembli" stadionu
Azarkeş tutumu: 99000
İcazə verilən azarkeş sayı: 25 faiz

Matçlar
13 iyun. 17:00 İngiltərə - Xorvatiya
18 iyun. 23:00 İngiltərə - Şotlandiya
22 iyun. 23:00 Çexiya - İngiltərə
26 iyun. 23:00 1/8 final
29 iyun. 20:00 1/8 final
6 iyul. 23:00 1/2 final
7 iyul. 23:00 1/2 final
11 iyul. 23:00 FİNAL



Şəhər: Bakı
Stadion: Olimpiya
Azarkeş tutumu: 69,870
İcazə verilən azarkeş sayı: 50 faiz

Matçlar
12 iyun. 17:00 Uels - İsveçrə
16 iyun. 18:00 Türkiyə - Uels
20 iyun. 20:00 İsveçrə - Türkiyə
3 iyul. 20:00 1/4 final



Şəhər: Qlazqo
Stadion: "Hempden Park" stadionu
Azarkeş tutumu: 51,866
İcazə verilən azarkeş sayı: 25 faiz

Matçlar
14 iyun. 17:00 Şotlandiya - Çexiya
18 iyun. 20:00 Xorvatiya - Çexiya
22 iyun. 23:00 Xorvatiya - Şotlandiya
29 iyun. 23:00 1/8 final



Şəhər: Sankt-Peterburq
Stadion: Qazprom Arena
Azarkeş tutumu: 68 min
İcazə verilən azarkeş sayı: 50 faiz

Matçlar

12 iyun. 22:00 Belçika - Rusiya
14 iyun. 20:00 Polşa - Slovakiya
16 iyun. 17:00 Finlandiya - Rusiya
18 iyun. 17:00 İsveç - Slovakiya
21 iyun. 23:00 Finlandiya - Belçika
23 iyun. 20:00 İsveç - Polşa
2 iyul. 20:00 1/4 final



Şəhər: Sevilya
Stadion: "La Kortuha" stadionu
Azarkeş tutumu: 60 min
İcazə verilən azarkeş sayı: 30 faiz

Matçlar

14 iyun. 23:00 İspaniya - İsveç
19 iyun. 23:00 İspaniya - Polşa
23 iyun. 20:00 Slovakiya - İspaniya
27 iyun. 23:00 1/8 final



Şəhər: Kopenhagen
Stadion: "Parken" stadionu
Azarkeş tutumu: 38,065
İcazə verilən azarkeş sayı: 33 faiz

Matçlar

12 iyun. 20:00 Danimarka - Finlandiya
17 iyun. 20:00 Danimarka - Belçika
21 iyun 23:00 Rusiya - Danimarka
28 iyun. 20:00 1/8 final



Şəhər: Budapeşt
Stadion: Ferents Puşkaş stadionu
Azarkeş tutumu: 67,215
İcazə verilən azarkeş sayı: 100 faiz

Matçlar

15 iyun. 20:00 Macarıstan - Portuqaliya
19 iyun. 17:00 Macarıstan - Fransa
23 iyun. 23:00 Portuqaliya - Fransa
27 iyun. 20:00 1/8 final



## ADBTİA "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi ilə əməkdaşlıq edəcək

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (ADBTİA) ilə "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

ADBTİA-nın mətbuat xidmətindən verilən məlumata görə, memorandumu Akademiyanın rektoru Fuad Hacıyev və İctimai Birliyin idarə heyətinin sədri Miraqil Seyidzadə imzalayıblar.

Sənədin imzalanması münasibətilə təşkil edilən onlayn toplantıda Akademiyanın və İctimai Birliyinin rəhbərliyi, ADBTİA-nın tələbə və müəllim heyəti, eləcə də idman könüllüləri iştirak ediblər.

Tədbirdə çıxış edən Akademiyanın rektoru Fuad Hacıyev bildirib ki, idman könüllüləri ölkəmizdə keçirilən nüfuzlu beynəlxalq yarış və tədbirlərdə daim fəallıqları ilə seçiliblər və həmişə təşkilatçılara böyük dayaq olublar. Rektor Akademiyanın fəaliyyəti və yeniliklər barədə də məlumat verib.

Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri, Olimpiya çempionu Fərid Mansurov idman könüllülərinin fəaliyyətindən danışıb. Qeyd edib ki, idman könüllüləri artıq ölkəmizin idman ictimaiyyətinin aparıcı qüvvəsinə çevriliblər. Bu gün onların iştirakı olmadan ölkədə tədbirlərin təşkili mümkün deyil.

"Azərbaycan İdman Könüllüləri" İctimai Birliyinin sədri Miraqil Seyidzadə isə təşkilat barədə məlumat verərək görülən işlərdən və nəzərdə tutulan tədbirlərdən danışıb.

Qeyd edilib ki, ADBTİA ilə "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi arasında imzalanan memorandum bu iki təşkilat arasında sıx əməkdaşlığın təməli olacaq.

## Qılıncoynadanlarımız Ukraynada beynəlxalq turnirdə iştirak ediblər

Şpaqa üzrə milli komandamız Xarkovda Leonid Averbaxın xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə iştirak edib.

Beş mərhələdən ibarət turnirdə Azərbaycan və Ukrayna ilə yanaşı, ABŞ, Qazaxıstan, Yaponiya və Özbəkistan idmançıları da mübarizə aparıblar. Üç



qrup mərhələsi və pley-offdan ibarət turnirdə kişilərin mübarizəsində 188 idmançı qüvvəsini sınayıb. Təmsilçilərimizdən Kənan Əliyev və Ruslan Həsənov ən güclü 16 kişi şpaqaçı sırasına yer alıb. Üç qrup mərhələsini uğurla adlayan Xalid Əliyev təsəlli turunda ukraynalı Andrey Derkaç (7:15) və Yuriy Zapara (8:15) uduzub. Barat Quliyev üç qrup mərhələsini keçsə də növbəti tura vəsiqə qazana bilməyib. Kənan Məlikzadə və Raul Aruslanov ikinci turda mübarizəni dayandırıblar. Fərrux Səfərov və Elçin Daşdəmirov isə ilk turda uduzublar.

Qızlar arasında ən yaxşı göstərici 124 idmançı arasında 32 ən güclü şpaqaçı sırasına yüksələn Xədicə Həsənliyə məxsusdur. Aynur Quliyeva iki tur adlamağı bacarsa da, üçüncü mərhələdə uduzub. Nazilə Rəhimova isə ilk mərhələdə məğlub olub.

Kənan Əliyev, Ruslan Həsənov, Xalid Əliyev və Barat Quliyevdən ibarət birinci komandamız Xarkovun ikinci komandasına 45:41 hesabı ilə qalib gəlib. Komandamız ikinci görüşdə Kiyev təmsilçilərinə 36:45 hesabı ilə uduzub. Nazilə Rəhimova, Xədicə Həsənli, Aynur Quliyevadan ibarət komandamız ilk görüşündə Dneprin ikinci komandasına 44:45 hesabı ilə uduzsa da, ikinci görüşdə Dneprin 3-cü komandasını 45:28 hesabı ilə məğlubiyyətə uğradıb.

## Ölkəmizdə badmintonla bağlı proqramın tətbiqinə başlanılıb



Azərbaycan Badminton Federasiyası ilə Dünya Badminton Federasiyasının birgə əməkdaşlığının nəticəsi olaraq "BWF Membership Grants" layihəsi çərçivəsində ilk dəfə ölkəmizdə "Shuttle Time" proqramının tətbiqinə start verilib.

İlk olaraq Lənkəranda proqram çərçivəsində idman müəllimləri üçün 4 günlük təlimlər keçirilib. Təlim iştirakçıları badmintonun nəzəri və praktik biliklərinə yiyələniblər. Qarşıdakı günlərdə Qusar (1-4 iyun), Bakı (8-11 iyun), Sumqayıt (15-18 iyun) və Gəncədə (22-25 iyun) də "Shuttle Time" proqramı təşkil olunacaq.

Layihənin əsas məqsədi ölkəmizdə badmintonun kütləviliyinə nail olmaq, məktəblilər arasında bu idman növünə maraq oyatmaq və gənc badmintonçu məşqçiləri hazırlamaqdır.

"Shuttle Time" proqramı Dünya Badminton Federasiyası, Avropa Badminton Konfederasiyası, Azərbaycan Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi və Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilir.

## "Çelsi" tarixində ikinci dəfə Çempionlar Liqasının qalibi oldu

UEFA Çempionlar Liqasında 2020/2021 mövsümünün qalibi müəyyənləşib. İngiltərənin "Çelsi" komandası tarixində ikinci dəfə Avropanın ən nüfuzlu klub turnirinin baş mükafatına yiyələnib. "Zadəganlar" finalda digər İngiltərə təmsilçisi "Mançester Siti" üzərində 1:0 hesabı ilə qələbə qazanıblar. Yeganə qolu matçın 42-ci dəqiqəsində Kay Haverts vurub.




Beləliklə, "Mançester Siti" tarixində ilk dəfə Çempionlar Liqasını əldə etmə şansını qaçırıb. "Çelsi" isə 9 ildən sonra yenidən Çempionlar Liqasının qalibi olub.

Final matçından sonra qaliblərin təntənəli mükafatlandırılması mərasimi keçirilib. Qalib komandaya kuboku və futbolçulara medalları UEFA prezidenti Aleksandr Çeferin təqdim edib.

London təmsilçisi həmçinin 2019-cu ildə Bakıda Avropa Liqasını qazanıb.

Qeyd edək ki, bu matç son əlli ildə komandaların avrokuboklarda ilk qarşılaşması olub. Komandalar ilk dəfə bu turnirin 1970-1971-ci il mövsümündə (həmin dövrdə yarış UEFA Kuboklar Kuboku adlandırılırdı) yarımfinalında üz-üzə gəliblər. "Çelsi" hər iki oyunda minimal hesabla qalib gəlib.

Bu matç, həmçinin 2000-ci ildən etibarən eyni ölkənin klubları arasında oynanılan səkkizinci final matçı olub. Belə ki, Çempionlar Liqasının tarixində eyni ölkənin komandaları ilk dəfə 2000-ci ildə qarşılaşıb. Həmin görüşdə "Real Madrid" komandası "Valensiya"nın qapısından üç cavabsız top keçirmişdi. "Kral klubu" daha sonra iki dəfə - 2014-cü və 2016-cı illərdə finalda "Atletiko Madrid"ə qalib gəlib. 2003-cü ildə "Milan" komandası "Yuventus"u, 2008-ci ildə "Mançester Yunayted" klubu "Çelsi"ni, beş il sonra "Bavariya" komandası "Borussiya Dortmund"u məğlubiyyətə uğradaraq çempion adını qazanıblar. 2019-cu ildə isə "Liverpul" finalda "Tottenhem"i 2:0 hesabı ilə məğlub edərək çempion olmuşdu.

Xatırladaq ki, UEFA Çempionlar Liqasının final qarşılaşmasının İstanbuldakı Atatürk Olimpiya Stadionunda keçirilməsi planlaşdırılsa da, sonradan COVID-19 pandemiyası ilə əlaqədar görüşün Portuda oynanılması qərara alınıb.

## *İqor Ponomaryov "Sabah"ın idman direktoru təyin edildi*



"Sabah" klubunda yeni təyinat olub. Paytaxt təmsilçisinin Müşahidə Şurasının üzvü olan İqor Ponomaryov klubun idman direktoru vəzifəsinə təyin edilib.

Qeyd edək ki, keçmiş futbolçu və məşqçi, 1988-ci ilin Olimpiya çempionu, SSRİ-nin əməkdar idman ustası (1989) olan İ.Ponomaryov 2018-ci ildən "Sabah" FK-nın Müşahidə Şurasının üzvüdür.

Futbolçu karyerasının böyük hissəsini "Neftçi"də keçirən sabiq yarımmüdafiəçi, SSRİ-nin gənclər yığmasının üzvü olub, 1988-ci ildə Seulda keçirilən Yay Olimpiya Oyunlarında qızıl medal qazanan yığmanın heyətində yer alıb. Ponomaryov SSRİ-nin əməkdar idman ustası adına layiq görülüb. Karyerasını bitirdikdən sonra məşqçi fəaliyyəti ilə məşğul olan mütəxəssis, İsveçin "Sirianska", Rusiyanın "Maşuk" klublarıyla yanaşı, ölkəmizdə "Qarabağ" və "Xəzər Lənkəran" kimi komandalarda çalışıb.

Ponomaryov 2000-2001-ci illərdə Azərbaycanın futbol üzrə əsas yığmasının da baş məşqçisi olub.

## "Vilyareal" Avropa Liqasının qalibi oldu

Polşanın Qdansk şəhərində futbol üzrə UEFA Avropa Liqasının 2020-2021-ci illər mövsümünün final görüşü keçirilib.

Turnirin həlledici görüşündə İngiltərənin "Mançester Yunayted" klubu İspaniyanın "Vilyareal" komandası ilə üz-üzə gəlib.

Gərgin keçən görüşdə hesabı ispanlar açıblar.

Matçın 29-cu dəqiqəsində Daniel Parexonun cərimə meydançasına ötürməsindən sonra topa hamıdan tez yetişən Jerard Moreno komandasını hesabda önə çıxardıb.

Buraxılan qoldan sonra irəli atılan Mançester təmsilçisi rəqibin qapısı qarşısında bir neçə təhlükəli vəziyyətlə yaradıb. Buna baxmayaraq birinci hissə "Vilyareal" klubunun minimal hesablı üstünlüyü ilə başa çatıb.

Fasilədən sonra hücumların kəsərin artıran "Mançester Yunayted" komandası oyunun 55-ci dəqiqəsində hesaba tarazlıq gətirib. Edison Kavani rəqibin müdafiəsində yaranmış boşluqdan istifadə edib.

Qarşılaşmanın əsas vaxtı 1:1 hesabı ilə başa çatıb.

Oyunda qalibi müəyyənləşdirmək üçün 30 dəqiqəlik əlavə vaxt oynanılsa da, hesab dəyişməyib.

Beləliklə, oyunda qalib 11 metrlik cərimə zərbələrindən sonra müəyyən olunub.

Penalti seriyalarında daha üstün olan (11:10) "Vilyareal" UEFA Avropa Liqasının qalibi olub.



Beləliklə, "Vilyareal" tarixində ilk dəfə UEFA Avropa Liqasının kubokunu başı üzərində qaldırıb.

Qeyd edək ki, "Qarabağ" klubunun yer aldığı I qrupdan lider kimi pley-offa adlayan La Liqa təmsilçisi tarixində ilk dəfə UEFA Avropa Liqasının finalında oynayıb. Komandanın baş məşqçisi Unai Emeri isə artıq dörd dəfə bu həyəcanı yaşayıb. İspaniyalı mütəxəssis 2013-2016-cı illərdə ölkəsinin "Sevilya", 2018-2019-cu il mövsümündə isə İngiltərənin "Arsenal" komandası ilə finala çıxmağı bacarıb. "Sevilya" ilə ilk üç finalda qələbə qazanan U.Emeri London klubunun sükanı arxasında olarkən Bakıda baş tutmuş həlledici oyunda "Çelsi"yə məğlub olub. Əlli yaşlı mütəxəssis, həmçinin üç müxtəlif komandanın baş məşqçisi kimi UEFA Avropa Liqasının finalına yüksələn ilk çalışdırıcı kimi tarixə düşüb.

Bu qələbə sayəsində "Vilyareal" həm də 2021-2022-ci il mövsümündə UEFA Çempionlar Liqasına vəsiqə qazanıb.

# Dünya idmanı



olimpnews.az - sizin saytınız




## Minskdə keçiriləcək çempionat təxirə salındı

*Avropa Velosiped İdmanı İttifaqı (UEC) Minskdə keçiriləcək "Avropa Velosiped Çempionatı-2021"i təxirə salmaq qərarına gəlib.*

Bundan əvvəl Almaniya və Niderland komandaları Belarus paytaxtına getməkdən imtina etmişdilər. Həmin ölkələrin milli idman federasiyalarının bu qərarı verməsinə səbəb "Ryanair" təyyarəsinin Minskə təcili enişi ilə bağlı hadisədən sonra Avropa İttifaqı ölkələri ilə Belarus arasında hava nəqliyyatının məhdudlaşdırılması olub.

"Beynəlxalq müzakirəyə çevrilən vəziyyəti Belarus Velosiped İdmanı Federasiyası (BFVS) ilə birlikdə izlədik və bu gün idarə heyəti iclasında Minskdəki tədbiri təxirə salmaq qərarına gəldik", - deyə qurumun mətbuat xidmətindən bildirilib.

Qeyd edək ki, velosiped idmanı üzrə dünya çempionatı Minskdə 23-27 iyun tarixlərində keçirilməli idi.



## Pişik AVRO-2020-nin əsas "ekspertlərindən" biri seçilib

Rusiyanın Ermitaj muzeyinin pişiyi qeyri-adi istedadı ilə seçilir.

O, futbol oyunlarının nəticələrini əvvəlcədən proqnozlaşdırmağı bacarır.

Bir qayda olaraq, Axill adlı pişiyin qarşısına içərisində yem olan iki qab, hər qabın yanında isə oyun iştirakçısı olan yığmanın bayrağı qoyulur. Pişik qarşılaşmada qalib olacaq tərəfin bayrağı olan qaba doğru gedərək, məhz həmin qabdan yeməyə başlayır.

Anadangəlmə kar olan Axillin öncəgörənliyi 2017-ci ildə keçirilən Konfederasiyalar Kuboku zamanı üzə çıxıb. Pişik turnirin dörd matçından üçünün, o cümlədən də final qarşılaşmasının nəticələrini doğru təxmin edib.

2018-ci ildəki dünya çempionatı zamanı da Axillin ilk dörd proqnozu düzgün olub. Lakin sonrakı dörd cəhdi uğursuz alınıb.

Buna baxmayaraq, pişik AVRO-2020 matçları üçün də əsas "ekspertlərdən" biri kimi seçilib. O, doğma şəhəri Sankt-Peterburqda keçiriləcək matçların nəticələrini düzgün təxmin etməyə çalışacaq.





## Ramzan Kadırov: "Əgər məğlub olsan..."

Çeçenistan Respublikasının prezidenti Ramzan Kadırov bir şərtlə postunu tərk etməyi vəd edib. Onun sözlərinə görə, bu, müxalifət bloggeri Tumso Əbdürəhmanovun onun 13 yaşlı oğlu Adəmə döyüşdə qalib gələrsə, baş verəcək.

"Adəm, o, sənin bir çuval olduğunu deyir. Ona meydan oxu! Əgər məğlub olsan, səni çuval adlandıran şəxs səninlə təkbətək döyüşdə qalib gəlsə, o zaman respublikanın başçısı vəzifəsindən gedəcəyəm", - deyə Ramzan Kadırov instaqramda canlı yayım zamanı bildirib.

Xatırladaq ki, Adəm Kadırov aprelin 8-də Qroznıy şəhərində Aslan Bittirovla döyüş keçirib. Qarşılaşma texniki nokautla A.Kadırovun qalmaqallı qələbəsi ilə yekunlaşıb.

## Klubun qapıları Zidan üçün açıqdır

"Real"dan ayrılan Zinəddin Zidan işinə fasilə vermək fikrində deyil.

"Olimpiya dünyası" qəzeti "Marca"ya istinadən xəbər verir ki, o, yeni klub çalışdırmağa hazırdır. Bildirilib ki, indiyə kimi təkcə "Real"ın baş məşqçisi olan fransalı mütəxəssis yeni təcrübə qazanmaq niyyətindədir.

Xəbərdə Zidanın Madrid klubunun prezidenti Florentino Peresla münasibətlərin yaxşı qaldığı vurğulanıb. Qəzetin yazdığına görə, klubun qapıları onun üçün açıqdır, mütəxəssis istədiyi vaxt "Real"a qayıda bilər.

Qeyd edək ki, Zidan mayın 27-i istefa verib.



## *5 əvəzetmə qaydası daha bir il qüvvədə qalacaq*

Beynəlxalq Futbol Assosiasiyaları Şurası (İFAB) 5 əvəzetmə qaydası ilə bağlı qərarda dəyişiklik edib.

Koronavirus pandemiyası ilə bağlı tətbiq olunan qaydanın istifadə müddəti 2022-ci ilin sonuna qədər uzadılıb.

5 əvəzetmə qaydası ötən ilin mayından koronavirus pandemiyası səbəbindən tətbiq edilməyə başlamışdı. Qərarın bundan əvvəlki istifadə müddəti bu ilin sonuna qədər idi.

## 19 yaşlı idmançı yarış zamanı həlak oldu

Motosiklet yarışçısı "Saxon Carxpert Prustel" GP komandasının sürücüsü Ceyson Düpaskye İtaliya Qran-prisi zamanı qəzaya düşüb. 19 yaşlı C.Düpaskye kvalifikasiya zamanı döngələrin birində motosikletdən yerə yıxıldıqdan sonra digər yarışçının motosikletinin təkərləri altında qalıb. İdmançı Florensiyada yerləşən xəstəxanaların birinə ağır vəziyyətdə çatdırılsa da, təəssüf ki, həkimlər onun həyatını xilas edə bilməyiblər.

"Biz dərin hüznlə Ceyson Düpaskyeni itirdiyimizi bildiririk. MotoGP kollektivi olaraq onun komandasına, ailəsinə və yaxınlarına başsağlığı veririk. Ceyson, biz sənin üçün çox darıxacağıq", - deyə yarış seriyasının Twitter hesabında qeyd olunub.



Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19